## “Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin İdarəetmə Sistemlərinin Sertifikatlaşdırılması Orqanının

# Keyfiyyət Sahəsində Siyasəti

**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin** İdarəetmə Sistemlərinin Sertifikatlaşdırılması Orqanı ISO standartları üzrə sertifikatlaşdırma işlərini həyata keçirir.

**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin** İdarəetmə Sistemlərinin Sertifikatlaşdırılması Orqanının keyfiyyət sahəsində siyasəti aşağıdakılardan ibarətdir:

- Fəaliyyətimizi yerli istehsalın inkişafına yönəltmək;
- Sertifikatımızın beynəlxalq səviyyədə qəbul olunması məqsədi ilə fəaliyyətimizi Beynəlxalq standartlara uyğunlaşdırmaq;
- Yerli istehsalçılar arasında idarəetmə sistemlərinin tətbiqinin artırılmasına nail olmaq;
- Akkreditasiya sahəsinin genişləndirilməsi;
- Azərbaycanda idarəetmə sistemlərinin sertifikatlaşdırma sahəsində lider olmaq.

Bu məqsədlərə nail olmaq üçün rəhbərlik maddi və intellektual ehtiyatların təmin edilməsini öz üzərinə götürür.

Sertifikatlaşdırma üzrə orqan sifarişçilər qarşısında aşağıdakı öhdəlikləri öz üzərinə götürür:

- sertifikatlaşdırma qaydalarını daimi təkmilləşdirmək;
- sertifikatlaşdırmanın nəticələrinin obyektivliyi və qərəzsizliyi haqqında sifarişçiyə zəmanət vermək;
- sertifikatlaşdırma üzrə işləri tələblərə tam uyğun və müəyyən edilmiş müddətdə yerinə yetirmək;
- sifarişçinin sertifikatlaşdırma üzrə məlumatlarının məxfiliyini təmin etmək;
- sertifikatlaşdırma prosesi zamanı yerinə yetirilən bütün işlərin standartların və digər normativ sənədlərin tələblərinə uyğunluğunu təmin etmək;
- sertifikatlaşdırma ilə əlaqədar məlumatların asan əldə edilməsinə zəmanət vermək;
- risklərin minimum səviyyədə saxlanılmasını təmin etmək;
- maraqlı tərəfləri edilən dəyişikliklər haqqında məlumatlandırmaq.

**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin** İdarəetmə Sistemlərinin Sertifikatlaşdırılması Orqanının siyasətinin əsası sifarişçilərin məmnunluq səviyyəsinin artırılmasıdır.